## Metro stansiyalarının sayı 73-ə çatdırılacaq

Ölkədə nəqliyyat infrastrukturunun yaradılması və genişləndirilməsi ilə bağlı işlər davam etdirilir. Şəhərimizə sərnişinlərin rahatlığını təmin edəcək avtobuslar gətirilir, yeni körpülər, yol qovşaqları, yol ötürücüləri, piyada keçidləri tikilir. Şəhər nəqliyyatında xüsusi yeri olan, daha sürətli və rahat nəqliyyat vasitəsi hesab edilən yeraltı nəqliyyatın inkişafı da diqqət mərkəzindədir. «Bakı Metropoliteninin 2011-2015-ci illərdə inkişafına dair Dövlət Proqramı»nda yeni stansiyaların tikilməsi, qatarların hərəkətinin təhlükəsizliyinin və sərnişin daşınmasının keyfiyyətinin artırılmasının təmin edilməsi, yeni tikiləcək xətlərdə platformaların uzunluğunun artırılması hesabına vaqonların sayının 5-dən 7-yə çatdırılması və sair məsələlər yer alıb. Dövlət Proqramının icrasından sonra sərnişinlərin daşınmasında və şəhərdaxili hərəkətində rahatlığa və çevikliyə nail olunacaq, əhalinin metroya cəlb edilməsi ilə digər ictimai nəqliyyat növlərinin yükü azaldılacaq, Bakı şəhərinin nəqliyyat sistemindəki gərginlik aradan qaldırılacaq.

Bakı Metropoliteninin rəisi Tağı Əhmədov Yeni Azərbaycan Partiyasının saytına verdiyi müsahibəsində bildirib ki, son illərdə metro tikintisinə ayrılmış 600 milyon manata yaxın vəsait hesabına yeni xətlər inkişaf etdirilib, «Nəsimi», «Azadlıq prospekti», «Dərnəgül» stansiyaları və «28 May» stansiyasının ikinci çıxışı istismara verilib. «İçərişəhər» və «Koroğlu» stansiyaları tamamilə yenidən qurulub. Digər altı stansiyada isə işlər davam etdirilir.

T.Əhmədovun sözlərinə görə, Bakı Metropoliteni öz maddi-texniki təminatına, müasir texnologiyalarla təchiz edilməsinə və sərnişinlərə göstərilən xidmətin səviyyəsinə görə dünyanın qabaqcıl metropolitenləri sırasına daxildir: «Nəzərə alsaq ki, dünyanın 55 ölkəsinin 154 şəhərində metro var, Bakı Metropoliteni daşınan sərnişinlərin sayına görə dünyada qırx birinci yerdədir. Metropolitenin maddi-texniki bazasının gücləndirilməsi, xüsusən vaqon parkının genişləndirilməsi də diqqətəlayiq nailiyyətlərdəndir».

Metropoliten rəisi qeyd etmişdir ki, Bakı Metropoliteni ölkə başçısı tərəfindən ayrılmış vəsait hesabına jeton sistemindən kart sisteminə keçmiş, qırx ildən artıq istifadədə olmuş turniketlər yeni və müasir dizaynlı turniketlərlə əvəzlənmiş, çipkartın stansiyalarda qoyulmuş bankomatlarda bilavasitə sərnişinin özü tərəfindən doldurulması məsələsi həll olunmuşdur. Metronun təhlükəsizliyi, təxribat və terrorçuluq cəhdlərindən qorunması üçün ciddi tədbirlər görülmüşdür: «Stansiyalarımızın hamısı videomüşahidə qurğusu ilə təchiz edilib. Belə qurğular vaqonlarda da quraşdırılıb. Dünya metroları arasında birinci olaraq üztanıma kamerası bizdə quraşdırılıb».

Bakı Metropoliteninin qarşısında böyük perspektivlərin olduğunu deyən T.Əhmədov əlavə etmişdir ki, ölkənin sosial-iqtisadi inkişaf sürəti nəzərə alınmaqla hazırlanmış layihəyə əsasən, 2030-cu ilədək respublikamızın paytaxtında metro stansiyalarının sayının 73-ə çatdırılması nəzərdə tutulur.

Onu da qeyd edək ki, sentyabr ayında Bakı Metropolitenindən istifadə edənlərin sayında artım müşahidə olunub - bu nəqliyyat növü üzrə 15 milyon sərnişin daşınıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu göstərici avqust ayına nisbətən 19% çoxdur. Bu ilin yanvar-sentyabr aylarında isə metrodan istifadə edən sərnişinlərin sayı 141,7 milyon olub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 7% çoxdur.

AYTƏN